# Bilik yarışı

Gənclər və İdman idarəsinin təşkilatçılığı, təhsil şöbəsi və QHT resurs və təlim mərkəzinin iştirakı ilə Qəbələ şəhər 1 saylı tam orta məktəbin akt zalında ümummilli lider Heydər Əliyevin anadan olmasının 90 illik yubileyinə həsr edilmiş Qəbələ rayon tam orta məktəblərinin IX—XI sinif şagirdləri arasında Bilik yarışının final mərhələsi keçirilmişdir.



Tədbirin final mərhələsində Gənclər və İdman idarəsinin rəisi Fəxri Soltanov, Təhsil şöbəsi metodkabinetinin müdiri Arifə Bayramova, QHT resurs və təlim mərkəzinin direktoru Qalib Nəbiyev çıxış edərək ümummilli lider Heydər Əliyevin müasir Azərbaycanımızın inkişafı yolunda gördüyü işlərdən, hər bir sahədə olduğu kimi gənclərlə iş və təhsil sahəsində apardığı islahatlardan danışmışlar. Natiqlər eyni zamanda yarışın keçirilməsində məqsədin yetişməkdə olan gənc nəsli dövlətçilik, Azərbaycan xalqının tarixinə, dövlət rəmzlərinə hörmət ruhunda tərbiyə etmək və eyni zamanda şagirdlər arasında intellektual səviyyəni yüksəltmək, onların bilik və bacarıqlarını artırmaqdan ibarət olduğunu bildirdilər.

Yarışın əsasnaməsinə uyğun olaraq Bilik yarışında rayonun orta məktəblərinin IX—XI sinif şagirdləri komanda şəklində iştirak etmişdir. Bilik yarışı əsasən Azərbaycan dili və ədəbiyyatı, tarix, riyaziyyat, həndəsə, coğrafiya, fizika, biologiya, kimya fənləri üzrə keçirilmişdir. Yarışda iştirak edən komandaların müəyyən edilməsi üçün mart ayından başlayaraq məktəbdaxili yarışlar keçirilmiş, rayon mərhələsində 16 komanda yarışaraq finala 4 komanda vəsiqə qazanmışdır. Münsiflər heyəti tərəfindən suallar hazırlanaraq yazılı şəkildə komandalara təqdim edilmiş və komandanın üzvlərindən biri yazılı şəkildə sualı cavablandırmışdır.

Toplanmış xalların nəticəsinə görə Qəbələ şəhər 4 saylı tam orta məktəbin komandası I yerə, Qəbələ şəhər 2 saylı tam orta məktəbin komandası II yerə və Qəbələ şəhər 1 saylı tam orta məktəbin komandası III yerə layiq görülmüşdür. Nohurqışlaq kənd tam orta məktəbin komandası isə fəal iştirakı ilə fərqlənmişdir.

Yarışın yekununda qalib gəlmiş (I, II, III yerləri tutmuş) və fərqlənmiş komandalara diplom və xatirə hədiyyələri, həmçinin İSRA kursları və Kaspi Mərkəzinin mükafatları təqdim olunmuşdur. Yarışları idarə edən münsiflər heyətinin üzvlərinə isə fəxri-fərmanlar verilmişdir.

**Məhəmmədəli SƏFƏRÇİNOV,**
**gənclər və idman idarəsinin baş məsləhətçisi.**

# Bank xidmətlərini təklif edir

AFB Bank ASC 28 noyabr 2008-ci il tarixində Azərbaycan Mərkəzi Bankı tərəfindən 253 saylı lisenziya almış, 2009-cu ilin fevral ayında öz fəaliyyətinə başlamışdır. Bank Qanunun 19-cu maddəsinə əsasən AFB Bank bank olaraq Açıq Səhmdar Cəmiyyəti kimi təsis olunmuşdur.

AFB Bank az müddətdir fəaliyyət göstərməsinə baxmayaraq həm Bakı şəhəri, həm də regionlar olmaqla 8 filial və 4 şöbədən ibarət əhatə dairəsinə malikdir. Müştəri məmnuniyyətini əsas götürən AFB Bank filial şəbəkəsini genişləndirməkdə davam edir. Bank ölkə iqtisadiyyatını və hökumətimizin monetar siyasətini dəstəkləməklə yanaşı, daim dinamik inkişafa hədəflənmiş səmərəli və təmkinli, az riskli və ölçülü fəaliyyətə üstünlük verir. Bank Azərbaycan Respublikasının Mərkəzi Bankından aldığı bank lisenziyasında qadağan edilməyən bütün fəaliyyət növləri ilə məşğul olur.

AFB Bankın Qəbələ filialı yuxarıda qeyd etdiyimiz kimi, 2009-cu ildən fəaliyyətə başlamış və yaxın rayonların da əhalisinin yüksək keyfiyyətli və səmərəli bank xidmətlərinə tələbatını ödəyir.

Qəbələ rayonu İ. Qutqaşınlı 137 ünvanında yerləşən "Qəbələ" filialı, istehlak kreditləri, güzəştli şərtlərlə kreditlər verilməsini təmin edir. Kiçik və orta biznes sahibləri və fərdi sahibkarlarla daimi maliyyə partnyorluğu edir və onlara fayda gətirə biləcək kreditlər təklif edir. Bundan başqa fərdi müştərilər üçün kassa hesablaşma əməliyyatları, depozit qoyuluşu, pul köçürmələri, plastik kartların sifarişi, kommunal ödənişlər və digər xidmətləri əhatə edən geniş kredit məhsulları və xidmətlər təklif olunur.

**AFB Bank ASC**
**Qəbələ Filialı.**

# «Gənc ailələr və problemlər»

Qəbələ Uşaq və Ailələrə Dəstək Mərkəzinin təşkilatçılığı ilə Heydər Əliyev Mərkəzində «Gənc ailələr və problemlər» mövzusunda «Dəyirmi masa» keçirilmişdir. Tədbirdə 35 nəfər gənc ana, Qəbələ rayon icra hakimiyyəti başçısının ictimai siyasi və humanitar məsələlər üzrə müavini Ətayə Osmanova, Qeydiyyat Şöbəsinin müdiri Zinyət Bağırova, Qızıl Aypara Cəmiyyəti rayon bölməsinin sədri Sədaqət Bayramova iştirak etmişlər.

Tədbiri giriş sözü ilə Qəbələ Uşaq və Ailələrə Dəstək Mərkəzinin direktoru Rəna Mahmudova açmış, gənc ailələrdən, onların qarşılaşdığı problemlərdən, günün aktual məsələsi olan nikahsız ailələrdən, boşanmalardan, bu sahədə rayonda mərkəz və digər təşkilatlarla birlikdə aparılan tədbirlərdən danışmış, dəyirmi masa iştirakçılarının fikir və rəylərini bildirmələri üçün onlara söz vermişdir.

2 saat davam edən dəyirmi masada rayon icra hakimiyyəti başçısının ictimai siyasi və humanitar məsələlər üzrə müavini Ətayə Osmanova, Qeydiyyat idarəsinin müdiri Zinyət Bağırova, Qırmızı Aypara Cəmiyyətinin sədri Sədaqət Bayramova, uşaq poliklinikasının pediatr həkimi Firuzə Şəfiyeva, gənc analardan Jalə Mirzəyeva, Tünzalə Cəlilova, Şəbnəm Kərimova, Məleykə Rəsulova və digər iştirakçılar öz fikirlərini bildirdilər və onları maraqlandıran suallarla iştirakçılara müraciət etdilər.

Tədbiri mərkəzin direktoru Rəna Mahmudova gənc analara öz tövsiyələri ilə yekunlaşdırdı.

**Afaq ABDURAHMANOVA,**
**Qəbələ UADM-in metodisti.**

## Futbol

# Gərginlik artır

Unibank Premyer Liqası sona yaxınlaşdıqca gərginlik daha da artır. İlk altılıqda dünən üç oyun keçirilmişdir. «Qəbələ» Bakıda «Bakı» üzərində 1:0 hesablı qələbə qazanmışdır. Yeganə topu bakılıların qapısına 22 nömrəli yarımmüdafiəçimiz Rodriges Assis vurmuşdur. «İnter» «Qarabağ»la oyunu qolsuz bərabərliklə yekunlaşdırdı. Çempion «Neftçi» isə «Simurq»a məğlub olmaqdan yaxasını çətinliklə qurtara bildi. İlk topu zaqatalılar vursalar da, bakılılar sonradan hesabı bərabərləşdirdilər—1:1

**M. RƏHİMOV.**


# ELANLAR

Qəbələ Rayon Aqrar İslahat Komissiyası tərəfindən 26 may 1998-ci il tarixli 10 saylı qərarla Zalam kənd sakini Eyyubov Vidadi Nəsrəddin oğlunun və ailə üzvlərinin adına verilmiş JN 0054 №-li (kod 40607018) Torpağın mülkiyyətə verilməsinə dair Dövlət aktı **itdiyi üçün** etibarsız sayılır.

Paşayev Nəbi Müsavər oğluna verilmiş reyestr nömrəsi 406013012458 saylı reyestrdən çıxarış və AA015131 №-li torpaq sahəsinin planı və ölçüsü **itdiyi üçün** etibarsız sayılır.

Qəbələ şəhər sakini Qəribov Siracəddin Qərib oğluna 26 fevral 2001-ci il tarixli 03 saylı qərarla verilmiş JN-2930F nömrəli (kod-40601004) Torpağın mülkiyyətə verilməsinə dair Şəhadətnamə **itdiyi üçün** etibarsız sayılır.

Əliyev Bəhmən Baba oğluna məxsus olan torpaq sahəsinin seriya nömrəsi RG-MA № 024937 olan reystrdən çıxarışı, inventar nömrəsi 406-78 /244 olan texniki pasportu və evin eskiz layihəsi **itdiyi üçün** etibarsız sayılır.

Qəbələ şəhər sakini Qəribov Nəcməddin Qərib oğluna 26 fevral 2001-ci il tarixli 03 saylı qərarla verilmiş JN- 2929 F nömrəli (kod-40601004) Torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə **itdiyi üçün** etibarsız sayılır.

Qəbələ rayonu Nic qəsəbə sakini Osmanlı Əlabbas Eyvaz oğlu şəxsiyyət vəsiqəsini və traktor idarə etmək üçün verilmiş vəsiqəni itirmişdir.

Sənədi tapanlardan xahiş olunur bu telefonlara zəng vursunlar. 050-545-22-41, 050-541-00-82


## Allah rəhmət eləsin!

Qəbələ Rayon İcra Hakimiyyətinin kollektivi Seyidqışlaq kənd inzibati ərazi nümayəndəsinin müavini

**CƏSARƏT ABDULKƏRİMOVUN**

vaxtsız vəfatı ilə əlaqədar ailə üzvlərinə başsağlığı verir.

Qəbələ Müalicə Diaqnostika Mərkəzinin kollektivi mərkəzin həkimi **Mürsəddin Abdurəhmanova,** atası

**SƏRXAN KİŞİNİN**

vəfatı ilə əlaqədar başsağlığı verir.


Redaktor
O. Ə. Məmmədov.

TƏSİSÇİLƏR:
Qəbələ Rayon İcra Hakimiyyəti və redaksiyanın jurnalist kollektivi.

Məsul növbətçi
A. C. Cəlilov.

ÜNVANIMIZ:
AZ 3600, Qəbələ şəhəri, Nizami küçəsi, 3.
Redaktor: (024)20 5-19-14.
Ümumi: 5 - 15 - 56.
e-mail: gabalanews@mail.ru

Azərbaycan Respublikası Mətbuat və İnformasiya Nazirliyində qeyddən keçmişdir.
"Kapitalbank"ın Qəbələ filialında hesab № Az36AIIB 33080019444900218149
VÖEN: 4400103601
Lisenziya AV № 022611

Qəzet "Qəbələ" qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş və Bakı şəhərində "E-Q" MMC-nin mətbəəsində ofset üsulu ilə çap edilmişdir.
Tiraj 2300.